# "Torpaq əlimdə, Bahar ürəyimdə"

## Paytaxtın yaz ətirli Novruz yarmarkası qonaq-qaralıdır



Milli varlığımızın rəmzi olan Novruz xalqımızın mənəvi dünyasını, həyata baxışını özündə əks etdirir. Ulularımızdan bizə yadigar qalan bayram baharın gəlişini, təbiətin oyanışını, həyatın canlanmasını müjdələyir, ölkəmizə şənlik, birlik, həmrəylik gətirir.

Bayram münasibətilə paytaxtda, bölgələrimizdə küçələr müxtəlif Novruz atributları ilə bəzədilib, şənliklər, yarmarkalar təşkil olunub. Bayramın yaraşığı olan səməninin, rəngarəng yumurtaların, həmçinin Keçəl və Kosanın, eləcə də paytaxtın mərkəzi küçəsində hazırlanmış bayram xonçasının maketləri həm paytaxt sakinlərinin, həm də turistlərin marağına səbəb olub.

Fəvvarələr meydanı da libasını dəyişərək baharın gəlişini müjdələyir. Burada açılan "Torpaq əlimdə, Bahar ürəyimdə" yarmarkası şəhərin mərkəzində bayram ab-havası yaratmaqla yanaşı, eyni zamanda yardıma ehtiyac duyan ailələrə ümid işığı olur. Nəcib missiyalı "Novruz" yarmarkası nəinki Azərbaycanda, həm də regionda keçirilən ən böyük xeyriyyə layihələrindən biridir. Layihə 2019-cu ildən etibarən "Nərgiz" Fondu tərəfindən həyata keçirilir. Hər il olduğu kimi, builki yarmarkada da toplanan vəsaitlər müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf ediləcək.









Böyükdən-kiçiyə hər kəsin səbirsizliklə gözlədiyi xeyriyyə yarmarkası martın 15-dən paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının üzünə açıqdır. "Torpaq əlimdə, Bahar ürəyimdə" yarmarkası 36 böyük və 20 kiçik ev, 3 ədəd ikimərtəbəli restoran, Novruz bayramına aid dekorativ konstruksiyalar, balaca köşklər, oyun zonaları, fotozonalardan ibarətdir. Həmçinin yarmarka konseptinə yeniliklər edilərək ziyarətçilərin, xüsusilə gənclərin marağına səbəb olacaq yeni tematik guşələr təqdim edilib.

Yarmarkanın qonaqları şirniyyatlar, milli və xarici mətbəxin ləziz təamlarını dada, suvenirlər və hədiyyələr əldə edə, hər yaşa uyğun oyunlar oynaya, şəkillər çəkdirə, ən önəmlisi Novruz bayramının həyəcanı və sevincini birlikdə paylaşa biləcəklər.

Əsl yaz havasının müşahidə edildiyi bu günlərdə yarmarkada gəzmək xüsusi zövq verir. Burada hər yaşdan insanların əylənməsi üçün, demək olar ki, bütün şərait yaradılıb. Uşaqlar səməninin ətrafında qaçdı-tutdu oynayır, yumurta döyüşdürür, gənclər musiqilərin fonunda söhbətləşir, oyunlar oynayır, alış-veriş edirlər.

Köşklərin hər biri qonaqlı-qaralıdır. Hansı köşkə üz tutursansa, böyük sevinclə qarşılanırsan. Sanki yarmarka insanları bir-birinə daha da yaxınlaşdırıb. Bu ünvanda həm milli, həm xarici təamları dadmaq mümkündür. Yarmarkada ən böyük növbə milli təamların satıldığı köşkdür. Övladları ilə yarmarkaya gələn Məlahət xanım deyir ki, bu növbədə gözləmək onun üçün ənənəvi hala çevrilib: "Uşaqlar neçə gündür yarmarkanın açılmasını gözləyirlər. Bura qısa müddətdə artıq ikinci gəlişimizdir. Yarmarkadakı səliqə-sahmana söz yoxdur. Satıcıların müştərilərlə rəftarı çox gözəldir. Növbəti ünvanımız oyuncaq köşküdür".

Yarmarkada yerli sakinlərlə yanaşı, çoxsaylı turistlərə də rast gəlmək mümkündür. Dostları ilə birlikdə ölkəmizdə qonaq olan Hindistan vətəndaşı Mishra Prakash deyir ki, Azərbaycana gəlişi bayram günlərinə təsadüf etdiyi üçün çox xoşbəxtdir: "Səyahət etməyi, müxtəlif xalqların adət-ənənələrini öyrənməyi, özəl günlərdə, bayramlarda iştirak etməyi çox sevirəm. Novruzun adını dəfələrlə eşitsəm də, bayram haqqında çox məlumatım yox idi. Burada gördüklərim çox xoşuma gəldi. Yarmarka yüksək səviyyədə, əsl bayram ab-havasında təşkil olunub. Milli təamlarınızı dadmaq üçün səbrsizlənirəm. Adətən milli bayramlara böyüklərin daha çox marağı olur. Novruz isə elə bir bayramdır ki, adət-ənənələri hər yaşdan olanlar üçün maraqlıdır. Növbəti bayrama ailəmlə gəlməyi düşünürəm".

Oyun zonasının yanından keçdikdə uşaqların həvəslə yarışdıqlarını müşahidə edirik. Onların yanında dayanan böyüklərə yaxınlaşırıq. Oyunda ciddi mübarizə aparan Elmirin nənəsi Sevda xanım gülərək deyir ki, uşaqlar ilboyu bu yarmarkanın açılmasını gözləyirlər: "Buradakı oyunlar da, yeməklər də balama bir ayrı zövq verir. Nə evdə, nə də digər kafe və restoranlarda yeməkləri burada ona çox dadlı və maraqlı görünür. Bayram boyunca fürsət tapdıqca, yenə bu yarmarkaya gələcəyik. Havanın xoş keçməsi isə əhvalımızı daha da yüksəldir".

Novruzun ab-havasını yaşadan yarmarka aprelin 15-dək davam edəcək. Burada iştirak etməklə hər birimiz həm Novruz nağılının parçası olub, həm də dəstəyimizə ehtiyacı olan uşaqlara əsl möcüzə bəxş edə, onlara yeni nəfəs verə bilərik.

***Ülkər XASPOLADOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***





